# Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın Belarusdakı səfirliyində olub



**Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub.**

Milli Məclisin Mətbuat və  ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, spiker Sahibə Qafarova və parlament nümayəndə heyətinin üzvləri əvvəlcə səfirlikdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüblər.

Sonra Sahibə Qafarova səfirliyin əməkdaşları ilə diplomatik nümayəndəliyimizin fəaliyyəti barədə söhbət edib, onlar üçün yaradılmış şəraitlə tanış olub.

*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 13 iyun, № 124.- S.3.